# Mündəricat


01 Əsas öyrənmə bacarıqları üzrə fəaliyyət izləyicisi 2025 (FLAT 2025)

02 Avropa ümumi təhsil məktəblərində sahibkarlıq təhsili

03 Doqquz ölkənin peşə təhsili və təlimi sistemlərinin təhlili

04 Maliyyə təhsili Yaponiyanın gənclərini rəqəmsal iqtisadiyyata necə hazırlayır?

# Əsas öyrənmə bacarıqları üzrə fəaliyyət izləyicisi 2025 (FLAT 2025)

01

UNICEF və Hempel Fondu tərəfindən “Əsas öyrənmə bacarıqları üzrə fəaliyyət izləyicisi 2025 (FLAT 2025) nəticələrinə əsaslanan hesabat hazırlanmışdır. Hesabatın məqsədi inkişaf etməkdə olan ölkələrdə ibtidai təhsil səviyyəsində təməl bilik və bacarıqların (oxu, riyazi savadlılıq və sosial-emosionallıq) mənimsənilməsi istiqamətində atılan addımları izləmək və RAPID (əhatə etmək, qiymətləndirmək, üstünlük vermək, artırmaq, inkişaf etdirmək) çərçivəsində əldə olunan irəliləyişləri qiymətləndirməkdir. Bu çərçivə təməl öyrənmənin gücləndirilməsi üçün ən vacib komponentləri müəyyənləşdirir və ölkələrin bu istiqamətlər üzrə fəaliyyətini sistemli şəkildə ölçməyə imkan yaradır. FLAT 2025 məlumatları 124 ölkəni əhatə edən sorğulara, UNICEF-in illik monitorinq sistemlərinə və RAPID göstəricilərini əhatə edən metodologiyaya əsaslanır.

RAPID çərçivəsi 5 əsas istiqamət indikatoru, 1–3-cü siniflər üzrə dərslik–şagird nisbəti, FLN (oxuyub anlama və riyazi bacarıqlar) üzrə müəyyən edilmiş öyrənmə meyarları, ibtidai siniflərdə milli qiymətləndirmələrin keçirilməsi, qiymətləndirmə məlumatlarının təhsil siyasətinə inteqrasiyası və sübuta əsaslanan FLN proqramlarının ölkə üzrə tətbiqini əhatə edir.

2025-ci il üzrə aparıcı indikator ibtidai siniflər üçün FLN meyarlarının müəyyən edilməsidir. Hesabat göstərir ki, iştirakçı ölkələrin 81%-i bu sahədə tam tətbiqə nail olmuşdur. Bu göstərici keçən ilə nisbətən bir qədər yüksəlsə də artım hələ də zəif hesab olunur. Bundan əlavə, ölkələrin yarısından çoxu ibtidai siniflərdə hər şagirdə bir dərsliyin düşməsini təmin edir. Qiymətləndirmə məlumatlarından həm sinifdaxili tədrisin təkmilləşdirilməsi, həm də təhsil siyasətinin formalaşdırılması üçün istifadə isə ölkələrin yarısından azında müşahidə olunur. Ən zəif göstərici isə sübuta əsaslanan FLN proqramlarının milli səviyyədə tətbiqidir - ölkələrin yalnız 30%-i bu proqramları tam şəkildə həyata keçirir.
Hesabatda təhsilin əlçatanlığının təmin edilməsi və şagird davamiyyəti təməl öyrənmənin başlanğıc nöqtəsi kimi qiymətləndirilir. Bu çərçivədə təhsil sistemlərinin məktəbdən yayınmağa meyilli uşaqları vaxtında müəyyənləşdirməsi və həssas qruplara məxsus şagirdlərin təhsildə iştirakına mane olan əngəlləri aradan qaldırması zəruri hesab olunur. FLAT 2025 bu sahə üzrə irəliləyişi dörd əsas indikatorla ölçür:

1. şagird davamiyyətinin və məktəbdən yayınmanın monitorinqi;
2. aztəminatlı ailələrdən olan uşaqlar üçün dəstək mexanizmlərinin mövcudluğu;
   həssas qruplar üçün əlavə müdafiə tədbirləri;
4. bərabərliyi hədəfləyən, sübuta əsaslanan sektor planlarının hazırlanması və icrası.

Bu istiqamətdə aparıcı indikator şagird davamiyyəti barədə məlumatların toplanması və nəticələrə əsaslanan müdaxilələrin həyata keçirilməsidir. 2025-ci ildə ölkələrin 61%-i bu mexanizmi tətbiq etdiyini bildirib. Bu istiqamətdə son üç il ərzində ardıcıl və müsbət artım qeydə alınmışdır. Ən zəif göstərici isə təhsildə bərabərsizliyin azaldılmasına yönəlmiş, sübuta əsaslanan sektor planlarının hazırlanması və icrasında qeydə alınmışdır. 2025-ci ildə yalnız 15% ölkə belə planların tətbiq olunduğunu qeyd etmişdir. Sosial-iqtisadi cəhətdən həssas qruplar üçün maliyyə və digər dəstək mexanizmlərinin əhatə dairəsi də zəif olaraq qalır. Ölkələrin təxminən 44%-i belə genişmiqyaslı dəstək mexanizmlərini tətbiq etdiyini bildirsə də 19%-i bu sahədə heç bir tədbir görmədiyini bəyan etmişdir.

Hesabatda qeyd olunur ki, 2025-ci ildə ölkələrin 70%-i qiymətləndirmə məlumatlarından milli səviyyədə siyasət və planlaşdırma proseslərində istifadə edir. Bununla belə, ən ciddi çatışmazlıq qiymətləndirmə nəticələrinin sinifdaxili tədrisin tənzimlənməsinə yetərincə tətbiq olunmamasıdır. Ölkələrin yalnız yarısı bu prosesləri milli səviyyədə sistemli şəkildə həyata keçirə bilir. Müəllimlər üçün qiymətləndirmə üzrə dəstəyin əhatə dairəsi də son illərdə artmışdır: 2023-cü ildə 21% olan göstərici 2025-ci ildə 49%-ə yüksəlmişdir. Lakin ümumilikdə bir çox ölkədə qiymətləndirmə sistemlərinin institusional dayanıqlılığı zəif olaraq qalır. Hesabatda qeyd edilir ki, yalnız 5% ölkədə güclü və davamlı qiymətləndirmə sistemi mövcuddur.



Hesabat göstərir ki, tədrisin səmərəliliyinin artırılması, öyrənməni dəstəkləyən strategiyaların geniş və sistemli şəkildə tətbiq edilməsindən asılıdır. FLAT 2025 bu sahədə əldə olunan irəliləyişi dörd əsas göstərici üzrə qiymətləndirir:

- Strukturlaşdırılmış pedaqoji yanaşmaların tətbiqi
- Diferensiallaşdırılmış (hədəfli) tədrisin həyata keçirilməsi,
- Bərpaedici öyrənmə proqramlarının səmərəliliyi
- Müəllimlərin peşəkar inkişaf sistemlərinin funksionallığı

Aparıcı indikator olan strukturlaşdırılmış pedaqogika 2025-ci ildə ölkələrin 49%-ində bütün məktəblərdə tətbiq edilir. Hədəfli tədris və bərpa proqramlarının genişləndirilməsi isə nisbətən zəif irəliləyiş göstərmişdir. Xüsusilə bərpa proqramları ən aşağı nəticəni nümayiş etdirir: ölkələrin yalnız 25%-i bu proqramları milli səviyyədə həyata keçirdiyini bildirib. Sübuta əsaslanan müdaxilələrin tətbiqi artsa da, bu müdaxilələrin geniş miqyasda tətbiqi və müəllimlərin peşəkar inkişafının gücləndirilməsi sahəsində mühüm boşluqlar qalmaqdadır. Təsirli irəliləyişə nail olmaq üçün müəllimlərin dəstəklənməsi, nəzarət mexanizmlərinin təkmilləşdirilməsi və hesabatlılığın artırılması vacib hesab olunur.

Hesabatda vurğulanır ki, uşaqların psixososial sağlamlığının və rifahının gücləndirilməsi onların öyrənmə meyillərini artırır, davamiyyət göstəricilərini yaxşılaşdırır və məktəbdən yayınma hallarının azaldılmasına mühüm töhfə verir.  Bu istiqamətdə irəliləyiş beş əsas indikator üzrə qiymətləndirilir: məktəb əsaslı psixososial dəstək xidməti (MHPSS), bu xidmət üçün ixtisaslaşmış kadrların cəlb olunması, məktəblərdə uşaq müdafiəsi siyasətinin mövcudluğu, məktəb qidalanma xidmətləri və MHPSS tələblərini nəzərə alan strateji sənədlər. Aparıcı indikator psixososial dəstək xidmətinin tətbiqidir. Hesabata əsasən, 2025-ci ildə ölkələrin 42%-i bu xidməti dövlət səviyyəsində həyata keçirib. Müqayisə üçün bu göstərici 2024-cü ildə 39%, 2023-cü ildə isə 23% təşkil etmişdir ki, bu da ardıcıl müsbət dinamikanı göstərir. Ən zəif irəliləyiş isə psixi sağlamlıq və rifah üçün psixoloq və ya məsləhətçi kimi ixtisaslaşmış kadrların təminatı sahəsində qeydə alınmışdır: 2025-ci ildə ölkələrin yalnız 28%-i bu addımı milli miqyasda gerçəkləşdirib (2024-cü ildə 26%, 2023-cü ildə 15%). Məktəb qidalanma xidmətləri üzrə isə nəzərəçarpacaq irəliləyiş müşahidə edilmişdir. 2025-ci ildə ölkələrin 45%-i məktəb qidalanma xidmətlərini milli səviyyədə təmin etdiyini bildirib ki, bu da sosial rifah istiqamətində mühüm addım kimi qiymətləndirilir.

Hesabat göstərir ki, FLAT 2025 reytinqində iştirak edən 124 ölkənin nəticələri hələ də ilkin inkişaf mərhələsindədir. Tədrisin səmərəliliyinin artırılması və şagird rifahının yaxşılaşdırılması istiqamətində irəliləyişə ciddi ehtiyac olduğu vurğulanır. Ümumilikdə, təməl öyrənmə sahəsində irəliləyiş demək olar ki, dəyişməz qalmış və bu da fəaliyyətlərin sürətləndirilməsini zəruri etmişdir. Ölkələrin təxminən onda biri keçən illə müqayisədə FLAT 2025 göstəricilərində əhəmiyyətli irəliləyiş nümayiş etdirib, əksər ölkələrdə isə vəziyyət sabit olaraq qalıb. Halbuki 2023–2024-cü illərdə isə daha çox ölkədə irəliləyiş qeydə alınmışdı ki, bu da ümumi inkişaf tempinin zəiflədiyinə işarə edir.

*Mənbə: UNICEF & Hempel Foundation. (2025). Foundations First: Insights from the Global Foundational Learning Action Tracker 2025. UNICEF.*

# Avropa ümumi təhsil məktəblərində sahibkarlıq təhsili

02

Avropa Komissiyası tərəfindən “Avropa ümumi təhsil məktəblərində sahibkarlıq təhsili” adlı geniş həcmli hesabat nəşr olunmuşdur. Hesabatda Avropa məktəblərində sahibkarlıq bacarıqlarının inkişafı məqsədilə həyata keçirilən kurikulum yanaşmaları, müəllim hazırlığı prosesləri və praktiki sahibkarlıq təcrübələri hərtərəfli şəkildə təhlil olunur. Sənəddə təqdim edilən məlumatlar Avropa İttifaqının 27 üzv dövləti ilə yanaşı, Albaniya, Bosniya və Herseqovina, İsveç, İslandiya, Lixtenşteyn, Monteneqro, Norveç, Serbiya və Türkiyədə ibtidai və orta təhsil səviyyələrini əhatə edən Eurydice sorğusu (Avropa təhsil sistemləri üzrə aparılan rəsmi araşdırma) əsasında toplanmış məlumatlara əsaslanır.

Sahibkarlıq bacarığı Avropa səviyyəsində ömürboyu öyrənmə üçün müəyyən edilmiş 8 əsas kompetensiyadan biri hesab olunur. Hesabatda təqdim olunan məlumatlara əsasən, sorğuda iştirak edən 38 ölkənin əksərində sahibkarlıq təhsilini dəstəkləyən milli strategiyalar mövcuddur. Şagirdlərdə sahibkarlıq bacarıqlarının sistemli şəkildə inkişafını hədəfləyən və sahibkarlıq təhsilinə tam şəkildə həsr olunmuş ayrıca strateji sənəd isə yalnız 5 təhsil sistemində - Bosniya və Herseqovina, İsveç, Lixtenşteyn, Monteneqro və Avstriyada mövcuddur. Sahibkarlıq təhsilinin artıq yalnız kiçik bizneslə bağlı məsələ kimi deyil, ümumi sosial-iqtisadi inkişafın mühüm komponenti kimi qəbul edilməsinin artdığını göstərir.

Son beş il ərzində respondent ölkələrin təxminən üçdə birində müəllimlərin peşəkar inkişaf proqramları və kurikulum islahatları vasitəsilə sahibkarlıq bacarıqları tədris proqramlarına inteqrasiya edilmişdir. Hesabatda vurğulanır ki, sorğuda iştirak edən ölkələrin təhsil sistemlərində sahibkarlıq təhsili müəllimlərə müxtəlif pedaqoji modellər əsasında təqdim olunur: bəzi ölkələrdə bu məzmun fənlərarası yanaşma vasitəsilə inteqrasiya edilir, digərlərində isə ayrıca fənn kimi tədris olunur. Təxminən təhsil sistemlərinin 75%-də (məsələn, Çexiya, Danimarka, Finlandiya) sahibkarlıq təhsili riyaziyyat, təbiət elmləri, dil və digər əsas fənlərə müasir pedaqoji metodlarla inteqrasiya olunur. Xüsusilə ibtidai təhsil səviyyəsində sahibkarlıq təhsili əsasən STEM və humanitar fənlərin çərçivəsində tədris edilir.

Fənlərarası yanaşma ilə paralel olaraq, sahibkarlıq təhsili məktəb kurikulumlarında ayrıca fənn kimi də təqdim oluna bilər. Təhsil sistemlərinin dörddə birində ibtidai və ümumi orta təhsil səviyyələrində adında “sahibkarlıq” ifadəsi olan bir və ya bir neçə fənn təklif olunur. Bəzi ölkələrdə bu tip fənlərin sayı birdən çoxdur. Məsələn, Estoniyada bu kateqoriyaya aid üç müxtəlif fənn mövcuddur və onlar fərqli yaş qruplarına, həmçinin müxtəlif öyrənmə məqsədlərinə istiqamətlənmişdir. Bu fənlərin əhatə dairəsi isə ölkələr arasında fərqlilik göstərir. Estoniya, İspaniya, Litva, İsveç və Norveçdə ümumi orta təhsil səviyyəsində “biznes” və “sahibkarlıq” adlı ixtisaslaşmış fənlər tədris olunur. Bəzi ölkələrdə isə fənnin adı yalnız “sahibkarlıq” kimi müəyyənləşdirilir. Bolqarıstanda isə “Texnologiya və Sahibkarlıq” adı ilə tədris edilir.

Avropada məktəb kurikulumlarının təhlili göstərir ki, EntreComp (Avropa Komissiyasının sahibkarlıq bacarıqlarını müəyyən edən çərçivə sənədi) çərçivəsində müəyyən edilmiş 15 sahibkarlıq bacarığından 6-da “maliyyə və iqtisadi savadlılıq” bütün təhsil pillələrində ən geniş şəkildə əhatə olunan komponent kimi diqqət çəkir. Bunun əksinə olaraq, “strateji düşünmə” bacarığı xüsusilə ibtidai və ümumi orta təhsil səviyyələrində məhdud şəkildə yer alır. Eyni zamanda, yaradıcı düşüncəyə əsaslanan “imkanları müəyyənləşdirmə və risk”, “qeyri-müəyyənlik və dəyişkənliklə şəraitdə idarəetmə” kimi bacarıqlar da təhsilin ilkin pillələrində ya ümumiyyətlə kurikulumlarda yer almır, ya da məhdud şəkildə əhatə olunur. Estoniya, Polşa və Norveç kimi ölkələrdə müəllimlərin peşə standartlarında sahibkarlıq təhsili ayrıca komponent kimi təqdim olunur. Avstriya isə məhz sahibkarlıq təhsilini tədris edən müəllimlər üçün ayrıca kompetensiya çərçivəsi hazırlayan yeganə ölkədir. Müəllim hazırlığına dair normativ sənədlər təhlil edildikdə görülür ki, təxminən 19 təhsil sistemində yüksək səviyyəli proqram və strateji sənədlər müəllimlər üçün sahibkarlıq təhsili üzrə təlimlərin keçirilməsini nəzərdə tutur və onların 15-də konkret öyrənmə məqsədləri müəyyənləşdirilir.



Məsələn, İsveçdə təqdim olunan “təhsildə sahibkarlıq” adlı təlim müəllimlərə sahibkarlıq anlayışlarını və müasir tədris metodlarını izah edir. Belçikada isə “sahibkarlığa yönəlmiş pedaqoji əsaslar” təlimi müəllimlərə şagirdlərdə sahibkarlıq düşüncəsinin formalaşdırılması strategiyalarını öyrədir. Hesabatda müəllimlərə yönəlik təlimlərin olmasına baxmayaraq məktəb rəhbərləri üçün sahibkarlıq yönümlü təlimlərə çox nadir hallarda yer verildiyi qeyd edilib.

Hesabatda qeyd edilir ki, məktəblərdə sahibkarlıq təhsilinin “tam məktəb yanaşması” kontekstində təşviqinə dair göstərişlər geniş yayılmayıb. Bu çərçivədə şagirdlər üçün praktik sahibkarlıq təcrübələri əsasən məktəbdənkənar fəaliyyətlər formasında həyata keçirilir. Şagirdlərin ideyadan real layihəyə keçidi nəzərdə tutan praktik fəaliyyətlərin tədris proqramlarına daxil edilməsi isə olduqca məhduddur. Hesabata görə, təhsil sistemlərinin təxminən üçdə biri bu cür təcrübələri kurikuluma daxil edir. Az sayda ölkədə isə bu təcrübələr qismən məcburi sinif fəaliyyəti kimi təqdim olunur. Məsələn, Latviyada ümumi orta təhsil səviyyəsində “ictimai elmlər” fənninin tərkibində praktik biznes layihələrinin icrası məcburi xarakter daşıyır. İrlandiyada isə “biznesin mahiyyəti” təlimləri vasitəsilə şagirdlər real sahibkarlarla birlikdə sinif transformasiya layihələri hazırlayır və bu proses “JA Ireland” kimi proqramlarla dəstəklənir. Bu nümunələr göstərir ki, praktik sahibkarlıq təcrübələrinin təşkili, həmçinin tətbiqində yerli biznes qurumları və ictimai təşkilatlar mühüm rol oynayır.

Hesabatdan məlum olur ki, sahibkarlıq bacarıqları Avropa təhsil sistemində artıq strateji əhəmiyyət kəsb edir və bir çox ölkədə bu istiqamətdə nəzərəçarpan irəliləyişlər əldə olunub. Həmçinin bu bacarıqların məktəbə inteqrasiyası hələ də könüllü xarakter daşıyır. Bu baxımdan, sahibkarlıq təhsili seçim xarakterli predmetdən çıxaraq daha geniş şəkildə tədris olunan fənnə çevrilməli, praktik təcrübələr isə daimi məktəb proqramının ayrılmaz hissəsi olmalıdır. Eyni zamanda, müəllimlərlə yanaşı məktəb rəhbərləri üçün də davamlı təlimlərin təşkil edilməsi zəruri hesab edilir.

*Mənbə: European Commission / EACEA / Eurydice (2025), Entrepreneurship education at school in Europe – 2025. Eurydice Report. Luxembourg: Publications Office of the European Union*

Beynəlxalq Təhsil İcmalı
Noyabr 2025

# Doqquz ölkənin peşə təhsili və təlimi sistemlərinin təhlili

03

OECD tərəfindən "Doqquz ölkədə peşə təhsili və təlimi sistemlərinin təhlili" adlı hesabat hazırlanmışdır. Hesabat Avstriya, Danimarka, Finlandiya, Almaniya, Niderland, Norveç, Sinqapur, İsveç və İsveçrənin peşə təhsili sistemlərinin təhlilini təqdim edir. Sənədin məqsədi qeyd olunan ölkələrin peşə təhsili modellərində mövcud oxşarlıqları, struktur fərqlərini və təşkilati xüsusiyyətlərini müəyyənləşdirmək, həmçinin müqayisəli məlumatlar əsasında analitik təhlil təqdim etməkdir.
Hesabatda göstərilir ki, 25–34 yaş qrupuna aid gənclərin təxminən beşdə biri üçün əldə edilmiş ən yüksək təhsil səviyyəsi peşə təhsilidir. Təqdim edilən ən əhəmiyyətli statistik məqamlardan biri peşə təhsili və təlimində (VET) şagird iştirakının ölkələr arasında kəskin fərqlənməsidir. 2021-ci ildə 15–19 yaş qrupunda VET-də təhsil alanların payı Avstriyada 68%, Finlandiyada təxminən 45%, Norveçdə 49%, İsveçdə 33%, Danimarkada isə bu göstərici 19% təşkil edir.

Hesabatda vurğulanır ki, ölkələrin böyük əksəriyyətində VET proqramlarına daxil olmaq üçün əsas meyar orta təhsil səviyyəsinin tamamlanmasıdır. Bununla yanaşı, bəzi ölkələrdə bu proqramlara qəbul imkanını təmin edən alternativ mexanizmlər də mövcuddur. Məsələn, Avstriyada tətbiq olunan "Lehre-mit-Matura" modeli çərçivəsində şagirdlər həm peşə təhsili alır, həm də ali təhsilə qəbul üçün tələb olunan ümumi fənlər üzrə imtahanları verərək ali təhsil müəssisələrinə keçid imkanı əldə edirlər. İsveçdə akademik göstəriciləri zəif olan gənclər üçün VET-ə hazırlıq məqsədilə 4 müxtəlif giriş proqramı mövcuddur və bu proqramlar tələbələrin peşə təhsilinə keçid üçün zəruri bilik və bacarıqları formalaşdırır. Hesabat həmçinin VET məzunlarının təhsil və məşğulluq nəticələrinə dair məlumatları əks etdirir. Qeyd olunur ki, bir çox ölkədə əmək bazarına birbaşa inteqrasiya edir. Bəzi ölkələrdə isə xüsusən Avstriya və Finlandiyada peşə təhsili məzunlarının əksəriyyəti təhsilini davam edirsə də Avstriyada bu göstərici 30%-dən çox, İsveçdə isə təxminən 10% təşkil edir.

Hesabat həmçinin göstərir ki, ölkələr arasında kurikulumun tənzimlənməsi və qiymətləndirmə metodlarının təşkili əhəmiyyətli dərəcədə fərqlənir. Sinqapurda VET kurikulumları əsasən dövlət tərəfindən mərkəzləşdirilmiş şəkildə hazırlanır. Almaniyada isə kurikulum və peşə standartlarının tənzimlənməsi həm federal, həm də regional səviyyədə həyata keçirilir; müəssisələrin nümayəndələrindən ibarət olan sahə komitələri adlanan qurumlar peşə standartlarının hazırlanmasında əsas rola malikdir.
Qiymətləndirmə metodlarına gəldikdə isə ölkələr arasında nəzərəçarpan fərqlər mövcuddur. Finlandiyada tam kompetensiya əsaslı qiymətləndirmə sistemi tətbiq edilir və yekunda dövlət imtahanı nəzərdə tutulmur. Danimarkada "trade test" adlandırılan yekun praktiki peşə imtahanı mövcuddur. Almaniyada federal səviyyədə təsdiqlənən təlim qaydaları (Ausbildungsordnung) nəzəri və praktiki qiymətləndirməni vahid milli standart çərçivəsində inteqrasiya edir.

Hesabatda diqqət çəkən mühüm məqamlardan biri APL-in (təcrübə proqramı) əhatə dairəsidir. Bu bütün ölkələr üçün ortaq komponent olsa da onların strukturu, tədris proqramında tutduğu pay və təşkil olunma formaları ölkələr arasında əhəmiyyətli dərəcədə fərqlənir. 2021-ci il məlumatlarına əsasən APL-in ən yüksək payı Danimarkada qeydə alınmışdır. Belə ki, peşə təhsili proqramlarında təhsil alan tələbələrin 100%-i təcrübə proqramlarında iştirak edir. İsveçdə isə bu göstərici cəmi 8% təşkil edir. Norveçin "2+2 modeli" (iki il peşə təhsili, iki il təcrübə proqramı) həm nəzəri, həm də praktik öyrənmə arasında balansın yaradılmasını təmin edir. Almaniyada isə dual sistem (30% peşə təhsili, 70%-i təcrübə proqramı) geniş miqyasda tətbiq olunur və ölkədə 320-dən artıq rəsmi peşə təlimi proqramı mövcuddur. Hesabatda qeyd olunur ki, ölkələrdə VET proqramları müxtəlif təşkilatlar tərəfindən həyata keçirilir və institusional struktur baxımından əhəmiyyətli fərqlər mövcuddur. Finlandiyada 139 peşə təhsili məktəbləri var və onların böyük əksəriyyəti bələdiyyələr və ya qeyri-hökumət təşkilatları tərəfindən idarə olunur. Sinqapurda peşə təhsili yüksək dərəcədə mərkəzləşdirilmiş model əsasında təşkil edilir; əsasən vahid qurum - Texniki Təhsil İnstitutu (Institute of Technical Education ITE) tərəfindən idarə olunur ki, bu da standartlaşdırılmış yanaşmanı və keyfiyyətin vahid nəzarət mexanizmini təmin edir.




Hesabatda göstərilən ümumi tendensiya ondan ibarətdir ki, peşə təlimi müəllimlərinin həm pedaqoji, həm də sahə üzrə mütəxəssis hazırlığı xüsusi tələblərlə tənzimlənir. Norveçdə peşə təlimi müəllimləri müvafiq sahə üzrə sertifikata və ən azı dörd illik iş təcrübəsinə malik olmalı, daha sonra isə pedaqoji hazırlıq proqramını tamamlamalıdırlar. Sinqapurda isə təlimçilərin əksəriyyəti sənaye mütəxəssislərindən formalaşır və onların pedaqoji hazırlığı ITE vasitəsilə təmin edilir. İsveçrə və Almaniya kimi ölkələrdə bu müəllimlər (in-company trainers) üçün xüsusi pedaqoji və texniki tələblər mövcuddur, bu tələblərə uyğunluq sistemin keyfiyyət təminatının əsas elementlərindən biri hesab edilir.

Hesabat idarəetmə modelləri üzrə ölkələr arasında mühüm fərqlərin mövcud olduğunu ortaya qoyur. İsveçrədə idarəetmə tripartit (dövlət, regional və yerli idarəetmə orqanları, müəssisə) modelinə əsaslanır. Danimarkada idarəetmə sisteminin əsas elementini sektor şuraları (peşə sahəsini təmsil edən məsləhətçi və tənzimləyici qurum) təşkil edir. İsveçdə isə hər bir peşə məktəbi çərçivəsində fəaliyyət göstərən yerli proqram şuraları işəgötürənlərin təcrübə proqramlarında iştirakını təmin edir və bu yolla təhsil proqramlarının əmək bazarının tələblərinə uyğunlaşdırılmasına töhfə verir.

Hesabatda həmçinin, ölkələr arasında maliyyələşmə mexanizmlərində ciddi fərqlərin mövcud olduğu göstərilir. Avropa ölkələrinin böyük əksəriyyətində VET tələbələri üçün təhsil ödənişsiz təmin olunur. Almaniyada müəssisələr təhsil alanların təqaüdlərini və təlim xərclərini dövlət subsidiyası (maliyyə dəstəyi) olmadan, tam şəkildə öz vəsaitləri hesabına qarşılayır. Norveçdə isə dövlət müəssisələrə hazırladıqları tələbələrin sayına uyğun olaraq subsidiya ayırır. Sinqapurda peşə təhsili qismən subsidiya olunsa da, tələbələrdən müəyyən nominal ödənişlərin edilməsi tələb olunur.
Ümumi təhlil göstərir ki, doqquz ölkənin peşə təhsili və təlim sistemləri həcmi, təşkilati mexanizmləri, kurikulumun strukturu, idarəetmə modelləri baxımından fərqli sosial-iqtisadi və institusional kontekstlərdə formalaşsa da, onların ortaq xüsusiyyəti əmək bazarının tələblərinə uyğun, yüksək səriştəyə malik kadrların hazırlanmasına yönəlmiş vahid strateji məqsədin mövcudluğudur.

*Mənbə: OECD (2025), OECD AI Capability Indicators Technical Report, OECD Publishing, Paris, https://doi.org/10.1787/9cdb3dd1-en.*

# Maliyyə təhsili Yaponiyanın gənclərini rəqəmsal iqtisadiyyata necə hazırlayır?

Dünya İqtisadi Formu (World Economic Forum) tərəfindən "Maliyyə təhsili Yaponiyanın gənclərini rəqəmsal iqtisadiyyata necə hazırlayır" adlı məqalə təqdim olunmuşdur.
Məqalədə vurğulanır ki, Yaponiyada rəqəmsal əməliyyatların, xüsusilə də nağdsız ödənişlərin həcmi sürətlə artmaqdadır. 2019-cu ildən etibarən bu sahədə irəliləyiş 1,5 dəfə artmış və 2024-cü ildə nağdsız əməliyyatların payı 42,8%-ə yüksəlmişdir. Bu da hökumətin 2025-ci il üçün qoyduğu "nağdsız əməliyyatların 40%-i" hədəfini bir il əvvəlcə yerinə yetirməsi deməkdir. Ölkə indi bu nisbəti daha da yüksəltmək üçün infrastruktur və istifadəçi mühitinin təkmilləşdirilməsi istiqamətində işləri sürətləndirir.
Məqalədə qeyd olunur ki, maliyyə texnologiyalarının bu qədər sürətlə gündəlik istifadəyə daxil olması gənclər arasında maliyyə savadlılığının və pul anlayışının formalaşdırılmasının zəruriliyini aktuallaşdırmışdır. Uşaqlar artıq ödənişi sadəcə pulla deyil, kart və ya tətbiq vasitəsilə etmək kimi hallarla qarşılaşırlar. Bu prosesdə pulun rolu, istək və ehtiyac arasındakı fərq, nağdsız əməliyyatların riskləri və istifadəsinin səmərəliliyi kimi qabaqcıl mövzuların uşaqların təhsil proqramlarına daxil edilməsini zəruri edir.

Bunun nəticəsi olaraq, Yaponiyanın Elm və Təhsil Nazirliyi 2022-ci ildən etibarən maliyyə savadlılığını ibtidai, orta və tam orta təhsil pillələrinin kurikulumuna tam şəkildə inteqrasiya etmişdir. İbtidai siniflərdə şagirdlərə pulun əsas funksiyaları və müxtəlif ödəmə üsulları izah edilir, orta və yuxarı siniflərdə isə maliyyə alətləri, gələcək büdcə planlaşdırılması və investisiya qoyuluşu kimi daha mürəkkəb mövzular öyrədilir.

Bundan əlavə, Ticarət və Sənaye Nazirliyi dəstək məqsədilə "Nağdsız nədir?" başlıqlı təlimat yayımlayıb ki, bunun vasitəsilə pulun nağd olmayan formaları, onların üstünlükləri və riskləri mövzusunda illüstrasiyalı və real həyatdan götürülmüş nümunələrlə uşaqlarla maarifləndirmə işləri aparır.

Bildirilir ki, özəl sektor da bu təşəbbüslərə qoşulub. "Kids Money Station" adlı təşkilat ibtidai sinifdən başlayaraq ali məktəbə qədər təhsilalanlara ailələri ilə birlikdə maliyyə savadlılığını artıran kurslar keçirir. Mobil operator NTT Docomo "comotto" kimi platformalar vasitəsilə "ödə, qazan, yığ və istifadə et" prinsiplərinə əsaslanan maliyyə davranışlarını simulyasiya edən interaktiv məzmun təqdim edir. Həmçinin, banklar məktəblər üçün nağdsız ödəniş sistemlərinin tətbiqinə və pulun idarə olunmasının planlaşdırılmasına dair videomateriallar və digər resurslar hazırlamışdır.

Məqalədə maliyyə savadlılığının yalnız kurikuluma əlavə olunması ilə kifayətlənilmir, eyni zamanda "J-FLEC" adlı dövlət-özəl tərəfdaşlığı qurumu ilə sıx əməkdaşlıq edildiyi vurğulanır. Bu qrup maliyyə və iqtisadi təhsil sahəsində fəal rol oynayır. Belə ki, müəllimlər üçün metodik materiallar hazırlayır, sertifikatlı təlimçi göndərir və məktəbləri lazım olan resurslarla təmin edir.
Qeyd olunur ki, bu yanaşmanın məqsədi uşaqları yalnız maliyyə sistemi ilə tanış etməklə məhdudlaşmır, həmçinin onlarda pulun dəyərinin dərk olunması, məsuliyyətli maliyyə davranışlarının formalaşdırılması və gələcəkdə maliyyə dayanıqlılığının təmin edilməsi bacarıqlarının inkişaf etdirilməsidir. Nağdsız əməliyyatların genişlənməsi ilə bu biliklər yalnız fərdi rifahın təmininə deyil, həm də ümumi iqtisadi dayanıqlılığın gücləndirilməsinə və vətəndaşların maliyyə bazarında daha optimal qərarlar qəbul etməsinə xidmət edəcəkdir.

*Mənbə: World Economic Forum. (2025, September 20). How financial education is preparing Japan's young people for a digital economy.https://jp.weforum.org/stories/2025/09/how-financial-education-is-preparing-japans-young-people-for-a-digital-economy/*